# Lerikin siması ilbəil gözəlləşir

***Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları ölkənin hər yerində olduğu kimi, Lerikdə də uğurla icra edilir. Rayonda yeni infrastruktur yaradılıb, təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa olunub, sahibkarlıq genişlənib, yeni avtomobil yolları inşa edilib, qaz və su xətləri çəkilib, elektrik təsərrüfatı yenilənib, 10 mindən yuxarı yeni iş yeri yaradılıb. Leriklilər ötən il oktyabrın 15-də Prezident İlham Əliyevin bu rayona tarixi səfərini iftixarla xatırlayırlar. Dövlət başçısı səfər çərçivəsində Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışını edib, “Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması” layihəsi üzrə işlərin yekun təqdimatında ictimaiyyət nümayəndələri ilə görüşüb. Prezident həmçinin Lerik elektrik stansiyasının, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən 100 yerlik körpələr evi-uşaq bağçasının və Bayraq Muzeyinin açılışlarında iştirak edib. Səfərdən sonra cənab İlham Əliyev dağlar diyarının gələcək inkişafı ilə bağlı sərəncamlar imzalayıb.***



Hər dəfə Lerikə yollananda istər-istəməz Xalq şairi Fikrət Qocanın bu sözlərini xatırlayıram: Bəlkə də, Allah cənnət deyəndə elə Lerikdən danışırmış”. Xarici səyyahlarsa Leriki “arxeoloji cənnət” adlandırıblar. Məşhur fransız yazıçısı A.Düma, fransız arxeoloq-səyyahı C.Morqan, rus səyyahı İ.Berezin və başqaları öz xatirələrində və yol qeydlərində bu bölgənin təbiəti və insanları barədə xoş sözlər deyiblər. Bu gün əsrarəngiz diyarın təbii gözəllikləri insan əllərinin sığalı ilə daha da cilalanır, pardaxlanır. Leriklilər də olduqca istiqanlı və qonaqpərvərdirlər. İstər yay olsun, istərsə də qış - adam burada keçirdiyi hər günü fərəhlə yaşayır, hər saatı qənimət bilir.

Lerikdə əsl işgüzar mühit hökm sürür. İcra hakimiyyətinin başçısı Rövşən Bağırovun vaxtaşırı ərazilərdə keçirdiyi səyyar qəbul-görüşlərdə sakinlər bunu həvəslə vurğulayır, problemlərinin ardıcıl həllindən razılıqlarını bildirirlər. Bu il rayon üzrə 1130, o cümlədən 262 daimi, 868 isə müvəqqəti iş yerləri yaradılıb. Həm məşğulluq təmin edilib, həm də əhalinin dolanacaq şəraiti yaxşılaşıb.

Ümumilikdə 2003-cü ildən bəri 14580 yeni iş yeri açılıb ki, bunun da 40 faizdən çoxu daimi xarakterlidir.

Dövlət vəsaiti hesabına rayonda 10 modul tipli məktəbin, Orand kəndində 180 şagird yerlik və Heydər Əliyev Fondunun vəsaiti hesabına Siyov kəndində 180 şagird yerlik məktəbin tikintisində son tamamlanma işləri aparılır, Zenoni kəndində 56, Haftoni kəndində 80 və Mistan kəndində isə 40 şagird yerlik



məktəblərin tikintisi davam etdirilir. Əvilə kəndində 180 şagird yerlik ümumi orta məktəbi bu tədris ilində müəllim və şagirdlərin istifadəsinə verilib. Hazırda Lerik şəhərində V.İbrahimov adına inteqrasiya təlimli internat tipli gimnaziyanın tədris korpusunun əsaslı təmiri yekunlaşır. Məktəb ərazisində yeni yataqxana korpusunun və idman zalının tikintisinə başlanıb.

Yaponiya dövlətinin maliyyə dəstəyi ilə bu il Conu və Pirasora kəndlərində, ölkəmizdə fəaliyyət göstərən Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) təşkilatının maliyyə dəstəyi ilə isə Cəngəmiran kəndində tibb məntəqələri tikilərək istifadəyə verilib. SEDA təşkilatının maliyyə dəstəyi ilə Murya kəndində məktəbə gedən avtomobil yoluna asfalt döşənib. Prezident sərəncamına əsasən, Zövnə və Zərikümeco kəndlərində artezian quyuları qazılır. Yaponiya dövlətinin maliyyə dəstəyi ilə Soru kəndində tibb məntəqəsinin tikintisi nəzərdə tutulur. Lerik şəhərinə alternativ su xəttinin və Şingədulan, Sors, Molalan və Geskon kəndlərinə yeni su xəttinin çəkilməsi ilə bağlı tikinti işləri davam etdirilir. Artıq Mastail-Lerik alternativ su xəttinin çəkilişi başa çatdırılıb.

Cənab İlham Əliyevin tapşırığı və ayırdığı vəsaitlə Lerik şəhərində 48 mənzilli, 4 mərtəbəli, 3 girişli yeni yaşayış binasının tikintisi də yekunlaşıb. Binada bəzək işləri həyata keçirilir. Əvvəlki illər ərzində Lerikdə Dövlət proqramları üzrə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri




üçün iki 16 bina inşa olunub. Bundan başqa, Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən daha bir 16 mənzilli bina tikilərək rayondakı imkansız ailələrə verilib. Ötən ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 13 nəfər Qarabağ müharibəsi əlili və şəhid ailəsi üçün, Fövqəladə Hallar Nazirliyi tərəfindən isə təbii fəlakət nəticəsində evləri qəza vəziyyətinə düşmüş 30 nəfər rayon sakini üçün fərdi yaşayış evləri tikilir. Rayonda fərdi qaydada tikilən evlər də çoxdur. Əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı digər tədbirlər ardıcıl həyata keçirilir.

Dövlət başçısının tapşırığı ilə 56 kilometrlik Lənkəran-Lerik və 22 kilometrlik avtomobil yolunun tikintisində son tamamlanma işləri aparılır. Monidigah və Lüləkəran kənd sakinlərinin müraciətləri nəzərə alınaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Blaband-Monidigah və Lüləkəran kəndinə gedən yolun 1,5 kilometrlik hissəsinə asfalt döşənib.

Dövlət rəhbərinin Lerikə ən böyük hədiyyələrindən biri də rayona mavi yanacağın verilməsidir. Bu qayğı sayəsində artıq rayonun 53 yaşayış məntəqəsi tam qazlaşdırılıb, bundan 29 ərazi nümayəndəliyinin 4506 əhali və 51 qeyri-əhali abonenti bəhrələnir. Peştətük, Vizəzəmin və Cənginəvud kəndlərinin qazlaşdırılması da son mərhələdədir. Bu il şəhərin Həzi Aslanov, Cəfər Cabbarlı, Şıxəli Qurbanov, Nəsimi, Arzuman Əsədullayev, Elşən Qasımov və digər küçələrində asfaltlaşdırma işləri həyata keçirilib. Həzi Aslanov, Elmar Qarayev küçələrində 200 metrdən yuxarı istinad divarı inşa edilib. Digər küçələrdə də istinad divarlarının tikintisi və bərpası nəzərdə tutulur. Şəhərin işıqlandırılmayan küçə və dalanları da nura qərq olub. Rayon sakinlərinin ən çox istirahət etdiyi Mərkəzi park yenidən qurulub, orada müasir oturacaqlar, işıqlandırma sistemi quraşdırılıb. Lerik şəhərində üçmərtəbə şadlıq sarayı tikilir. “Relax” turizm istirahət mərkəzində dəyəri 1 milyon 280 min manat olan yeni otellər, Piran kəndində yanacaqdoldurma məntəqəsi inşa edilir.

“Azərişıq” ASC tərəfindən Çayrud kəndinin elektrik təsərrüfatı yenidən qurulur, işıq dirəkləri yeniləri ilə əvəzlənir, xətlər sip kabellərlə çəkilir. Kənddə müasir transformatorların quraşdırılıcaq.

Aqrar sahə də inkişaf edir. 2020-ci ilin məhsulu üçün 1883 hektar sahədə herik şumu aparılıb, 265 hektar sahədə əkin aparılıb. Bu il sahələrdə 1422 hektar kartof, 313,6 hektar tərəvəz, 44 hektar çoxillik əkmə, 37 hektar qarğıdalı, 30 hektar tütün, 212,5 hektar paxlalı bitkilər əkilib. Sahələrdən keçən illə müqayisədə daha çox məhsul əldə edilmişdir. Rayon ərazisində 28 hektar sahədə “Virciniya” və “İmmuna” tütün sortları əkilib.

İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 2002-ci ildən bəri Lerik rayonu üzrə 337 sahibkara 15,85 milyon manat, o cümlədən bu ilin altı ayında 22 sahibkara 177 min manat güzəştli kredit ödənilib. Həmin kreditlər hesabına 1632 yeni iş yerinin açılması mümkün olub.

Bəli, “dağların tacı” Lerik beləcə inkişaf edir, əhalinin yaşam tərzi daha da yaxşılaşır.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***